UOT-48.71.91

GÜNEL QACAROVA*

# NÜSRƏT HACIYEVİN KİTAB QRAFİKASI ÜZRƏ YARADICILIĞINDA BƏDİİ TƏRTİBATIN ÜSLUB XÜSUSİYYƏTLƏRİ

*Məqalədə müasir dövr Azərbaycan incəsənətinin tanınmış nümayəndə-lərin¬dən olan Nüsrət Hacıyevin yaradıcılığı tədqiq edilmişdir. Müəllif Nüsrət Hacıyevin bədii ədəbiyyat nümunələrinə çəkilmiş illüstrasiyalarını tədqiqat obyekti kimi seçmişdir. Bu rəssamın kitab qrafikası sahəsindəki yaradıcılığının üslub xüsusiy¬yətləri təhlilə cəlb edilmişdir.*

***Açar sözlər:** Qrafika, rəssam, kitab, illüstrasiya, dünya, təsvir*

Nüsrət Hacıyev bir çox Azərbaycan və dünya ədəbiyyatının klassiklərinin ədəbi əsərlərinə çəkilmiş illüstrasiyaların müəllifidir. Xüsusən Azərbaycan və dünya şifahi xalq ədəbiyyatına – nağıllara verdiyi bədii tərtibatlar onun illüstrasiya sənətinin mahir ustası olduğunu göstərir.

Nüsrət Hacıyev yaradıcılığının böyük bir dövrünü kitab qrafikasına sərf etmişdir. Onu yaradıcılıq axtarışları kontekstində uşaq kitabı əsas sahələrdən birini təşkil edir. Rəssamın uşaq kitablarına verdiyi illüstrasiyalar səmimiyyəti, sadəliyi ilə fərqlənir. Uşaqlara olan sonsuz istyi, məhəbbəti bütün yaradıcılığı boyu nu tərk etmir. Uşaqlar üçün çəkilmiş sadə, anlaşıqlı rəsm kitabının məzmununu açılmasına xidmət edir. Uşaqlar onlara böyüklər tərəfindən oxunan nağılı yalnız eşitmək deyil, eyni zmanda görmək, hətta müstəqil surətdə toxunmaq istəyir, çünki adi bir dinləyici deyil, nağıllar dünyasıa düşmüş insanlardır.

Nüsrət Hacıyev Azərbaycan incəsənətinin inkişafında böyük istedada, fəal yaradıcılıq həvəsinə malik, həyatının mənasını yaradıcılıqda tapan bir sənətkardır. Rəssam əlliyə yaxın kitab tərtibatı üzərində çaışmışdır Bunlardan N.K.Andersonun "Düyməcik", "Nağıllar", "S neba upalo tri yabloka", "Sehrli nağıllar", A.Tolstoy "Buratono", K.Çukovskiy "Bibiqon", "Əfqan nağılları", "Russkiye narodnıe skazki", "Folklor nümunələri", "Dünya mənim, dünya sənin", "Uşaqları müharibədən qoruyaq", "Mərasimlər, adətlər, alqışlar", C.Cabbarlı "Ölkəm", gürcü nağılı "Komble", "Eskimos" nağılı "Ovçu və Nanuk", "Hamımız bir günəşin zərrəsiyik", "Demokratiya", "Diktatura", "Rənglər" kimi kitabların adlarını çəkmək olar.

Eyni zamanda 1-ci sinif şagirdləri üçün "Ana dili" kitabı dərsliyinə, Mir Cəlalın əsərlərinə 5 cildlik toplusuna, "Tutu" uşaq jurnalına və digər əsərlərə də çəkilmiş illüstrasiyaların müəllifidir.

Uşaq illüstrasiyası üzə çox gənc yaşlarından çalışmağa aşlayan rəssamın bir müddətdən sonra maraqlı yaradıcılıq xüsusiyyətləri üzə çıxmağa başlayır. Bəzən o "kitabça çəkməyə", digər işlərində ona illüstrasiyalar etməyə müvəffəq olurdu. Rəssam illüstrasiya vasitəsilə milli adət-ənənələrin, milli-mənəvi dəyərlərin daim təbliğ olunmasına, onların yetişməkdə olan nəsillərə çatdırılmasına çalışır.

Nüsrət Hacıyev uşaqlar üçün nəzərdə tutulmuş kitabların bədii tərtibatına xüsusi məsuliyyətlə yanaşır. Belə ki, rəssam illüstrasiyaların da kitab kimi bilik mənbəyi olduğunu daim vurğulayır. Rəssam illüstrasiya vasitəsilə milli adət-ənənlərin, milli-mənəvi dəyərlərin daim təbliğ olunmasına, onların yetişməkdə olan nəsillərə çatdırır.

Rəssamın Hans Xristian Andersenin "Ole-Lukoye və başqa nağıllar" kitabının üz qabığına verdiyi tərtibat elə ilk andanca özünün dolğun kompozisiyası, əlvan rənghəlli ilə diqqəti çəkir. Nağılları 100-dən çox xalqın dilinə tərcümə edilmiş danimarkalı yazıçının kitabına edilmiş





başlanğız illüstrasiya da H.Hacıyev nağılların yazıldığı xalqın milli mənşəyinə aidliyi, məhz XIX əsrin əvvəllərinə aid edilən mühiti uşaq təfəkkürünün qəbul edə biləcəyi ən sadə və maraqlı bədii ifadə vasitələri ilə əyata keçirmişdir.

H.X.Andersenin 200 illik yubileyinə həsr edilən kitabın nəfis tərtibatı həsr şeydən əvvəl onun əsasən firuzəyi rəng çalarlarında həyata keçirilməsidir. Bu rəngin arxa hissəsinin bütün fonun əhatə etdiy halda ön hissəd əsas rəng kimi iştirak etməsi ümumi kompozisiyada keçidlərin axarlı həlli ilə harmoniya yaratmışdır.

Ön hissədə iri çərçivənin içərisində tamaşaçısına baxan obrazın mənalı axışları diqqəti cəlb edir. Andersen özünün klassik portret təsviri ilə ətraf elementlərin arasında əlvanlığın içində ağ v qaranın uyğun rəng çalarları ilə maraq oyadır. Arxa fonda isə kitabda əsərlərə edilmiş illüstrasiyanın açıq çalarlarda həll edilmiş nümunələrindən brinin verilməsi xüsusi olaraq dolğun kitab tərtibatın təqdim edir.

Müəllifin məşhur "Düyməçik" nağılına edilmiş illüstrasiyalar əsas onunla maraq yaradır ki, əvvəlcədən kiçik yaşlıların cizgi filmdən izlədikləri səhnələrin artıq şüurlara hakim kəsilmiş fraqmentləri onları yenidən öz təəssüratlarından ayıraraq, alıqdıqları obraz görüntülərinin əksi ilə deyil, eyni hissiyyatın kitabdan qavranılan illüstartiv forması ilə tanış olurlar.

Kitabın yaşılı rəng həlli ilə həyata keçirilmiş üz qabığı özünün ux, optimist əhval-ruhiyyəsi ilə diqqəti cəlb edir. Eyni rəngin açıq və tünd dəyərləri ilə ağ fon üzərində edilmiş çərçivə tipli elementin bütün təsvir boyu əsas hissəni əhatələməsi onun mərkəzi hissəsinin daha diqqətçəkən olmasına şərait yaratmışdır. İncə zanbaq gülünün açan çəhrayı ləçəklərinin arasından boylanan Düyməciyin şən, təmiz, məsim baxışarı oxucularını onu "dinləməyə" səsləyir. Çiçəyi əhatə edən yaşıl iri yarpaqların təsviri bu incəliyi xüsusilə önə çəkir.

Kitabın tərtibatında N.Hacıyevin öhdəsinə janrın xüsusiyyətlərindən irəli gələrək vəhdəti heç də asan olmayan ikiqat vəzifə düşmüşdür. O, həm kitabın formasını şrift, format, kağız seçiminə əsaslanan quruluş vəhdə¬ti¬ni tematik ideya quruluşu ilə birləşdirmək iqtidarında olduğunu hər bir işdə uğurla təsdiqləməyi bacarmışdır. Bununla da kitabın emosional təsirinin artırılmasında yazıçının ruhunu tutaraq sanki onunla uzaq keçmiş olsun, uzaq məmləkıt olsun fərqini yoxdur, "əməkdaşlıq" yaratmağı bacarmışdır.

Gölməçənin üzərində bir yarpağın üzərində ürkəkcəsinə oturaraq iri gözləri ilə ona tamaşa edən qurğağı ilə böyük miqyas fərqi verməklə rəssam Düyməciyin çox zərif, incə bir canlı olduğu təəssüratını inandırıcı şəkildə kiçik tamaşaçısına çatdırır. Gölməçənin kənara daöılan mavi suları, çəhrayı bataqlıq çiçəkləri, açıq yaşıl yarpaqlar, qəhvəyi qamışlar əsərdə olduqca rəngarənglik yaradaraq maraq dairəsinin llk baxışdan qavranılacağı təsvir formasının müdana gəlməsi kitabın bədii tərtibatına xüsusi dəyər bəxş etmişdir.

Düyməcik özünün kiçik məsum formasını bütün bədən jestləri ilə nümayiş etdirir. Rəssam burda kobud iri gözlü qurbağa ilə incə, zərif Düyməcik qarşlaşdırılmasını təəccüb və qorxu hissi yaşayan zərif dünyanın üzləşməsi anı kimi təqdim etmişdir.

Qeyd edilən nağıla edilmiş digər bir illüstrasiyada da bu ölçü fərqi diqqəti çəksə də artıq qurbağanın öz kiçik otağında məsumcasına yatan Düyməciyə məhəbbət dolu baxışlarını rəssam onun güllü-çiçəkli çərçivənin arasından baxan təsbiri ilə həyata keçirmişdir. Bu cur həll xüsusi effektlərin vasitəsilə əsərin emosional təsir gücünü artırır, qarşıya qoyulmu. Hisslərin tərənnümündə xüsusi rol oynayır.

Kiçik fındıq qabığından hazırlanan beşik, ağacdan yonulmuş masa və onun üzərinə qoyulmuş incə gül, stul – bütün bu elementlərin də tərənümündə rəssam incəlik, zəriflik nümayiş etdirməklə Düyməciyin otağını ona yaraşdıraraq məkan və obraz əlaqələndirilməsini böyük məharətlə həyata keçirmişdir.

Nüsrət Hacıyev bir çox xalqların dilimizə tərcümə dilmiş nağıl kitablarına tərtibat verərək

onların yüksək sənətkarlıq nümunəsi kimi Azərbaycan kitab illüstrasiyanın inkişaf xəttini müəyyənləşdirənlərdən birinə çevrilmişdir. O, heç zaman hər hansı bir tərtibatda kortəbii olaraq, və yaxud sırf mövzunun tələb etdiyi səhə təsvirləri ilə deyil, özünün şəxsi yaradıc təfəkküründən çıxış edərək həmin əsərləri yaratmışdır. Rəssam tərəfindən trtib edilmiş istənilən kitab nümunəsinə tamaşa edərkən burada N.Hacıyevin vahid, oxşar bir xətt üzrə deyil, hər bir əsərdə onun yazıldığı xalq, millət, dövr nəzərə alınaraq ənənvi xüsusiyyətlərin açıqlanmasına çalışdığının şahidi oluruq. Belə nümunələrdən biri də Udin nağılı "Kəndli və dəvə" adlı kitaba həsr edilmiş illüstrasiyalardır.

Kitabdakı bütün materiallar taxtadan açıq qapı təəssüratı yaradan haşiyə arasında verilmişdir. Sanki hadisələrin, səhnələrin hər biri rəssam tərəfindən açılmış qapının arxasından nümayiş etdirilir. Əsərdə canlı məkan təəssürtaını yaradan element kimi odun olovlanması şəbəkəli divarın önündən xüsusi effekt yaradır. Kərpicdən hörülmüş çərçivənin sivri yuxarı hissəsi ön səhnəd hadisələin daha da qarşıya gətirilərək maraq yaratmasına səbə olmuşdur. Əslində ön səhnə dediyimiz sahədə uzana qədim kilim, taxta oturacağınv ə yuxarıda qyed ediln odun təsvirindən ibarət. Məhdud elementlərlə dolğun səhnə təəssürtaının yaradılmasına rəssam harmonik, əlan rəng həllinin verilməsi ilə nail olmuşdur. Taxta çərçivənin üzərindən hər iki tərəfdən vurulmuş qədim dəmir tutqac da öz növbəsində əsərin ekspressiyasını gücləndirir.

"Kəndli və dəvə" uşaq kitabına edilmiş digər illüstrasiya özünün təsvir forması ilə kiçik oxucularında böyük maraq yaradaraq onlarda mətni oxumağa həvəs yaradır. Hər tərəfdən taxtalarla bərkidilmiş tövlənin arxasından onun kiçik pəncərəsindən boylanan dəvənin komik görkəmi olduqca xoş təəsürat yaradır Ümumiyyətlə, kitabın bədii tərtibatında yaradılmış təəssürat əsərin mətnin necə qavranılmasına böyük təsir göstərir. Bu mənada rəssamın üzərinə düşən böyük bir məsuliyyətin öhdəsindən gəlməli olduğunu inamla qeyd etmək olar.

Qapının üzərindən asılan toxunma zənbilin içərisinə qoyulmuş samanın yem üçün nəzərdə tutlmasını anlayan dəvənin obrazındakı məzəli forma özünün böyük təsir gücü ilə təqdim edilir. Rəssam burada müxtəlif dekirativ tətbiqi sənət elementlərinin tərənnümü də vermişdir onların ilk baxışdan əhəmiyyətsiz olduğunu düşünsək də bütün məkan təəssürtaının təbii və dolğun alınmasına ən kiçik detalın belə özlüyündə rol oynadığını görərik. Eyni zmanda N.Hacıyevin burada göstərdiyi diqqət, ciddiyyət, böyük müşahidəçilik qabilyyətini də nəzərdən qaçırmaq mümkün deyil. Məsələn, qapının üzərindən asılmış kiçik nalın tövlə məkanı təəssürtaının daha dərin çatdırılmasında böyük rol oynadığını qeyd etmək olar. Eynilə kiçik dəmir səhəngin yerdə aşaraq döndüyünü tablonun hərəkətsizlikdən, donuqluqdan uzaq dinamik şəkildə təsvirə tabe edilmişdir.

## ƏDƏBİYYAT


1. Əliyev Z. Dəzgah qrafikasında obrazlı rəmzi ifadə vastələri axtaışları. Qobustan jurnalı. 2008 №1.
2. Əliyev Ziyadxan, Xəlilov Aslan. Azərbaycan İncəsənəti. II-III hissələr. Bakı 2011, 142 s.
3. Müzəffərli D. Qloballaşma prosesində miniatür sənətinin qorunması // Mədəniyyət. 2011. 30 dekabr. S. 15.
4. http://www.e-qanun.az/framework/12590


***Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dissertantı***
***e-mail: gq-design@mail.ru***





**Gunel Gajarova**

## STYLISTIC FEATURES OF ARTISTIC DESIGN IN THE WORKS ON BOOK DESIGN BY NUSRAT HAJIYEV

The article examines the works of Nusret Hajiyev, one of the famous representatives of Azerbaijani art in the modern period. The author chose as an object of study illustrations for various works of art created by Nusret Hajiyev. Author analyzed the stylistic features of artistic design in the works of book design.

**Keywords:** *graphics, artist, book, illustration, world*

**Гюнель Гаджарова**

## СТИЛИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ ХУДОЖЕСТВЕННОГО ДИЗАЙНА В ТВОРЧЕСТВЕ ПО КНИЖНОМУ ДИЗАЙНУ НУСРАТА ГАДЖИЕВА

В статье рассматривается творчество Нусрета Гаджиева, одного из известных представителей Азербайджанского искусства в современную эпоху. Автор выбрал как объект исследования иллюстрации, созданные к разным художественным произведениям, созданным Нусретом Гаджиевым. Проанализированы стилистические особенности художест-венного дизайна в творчестве по книжному дизайну.

**Ключевые слова:** *графика, художник, книга, иллюстрация, мир*

***(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim olunmuşdur)***

***Daxilolma:*** ***İlkin variant 29.03.2019***
***Son variant 24.06.2019***